# 12 aprel Ümumdünya Aviasiya və Kosmonavtika Günüdür

***Bəşər tarixi başlayandan insan oğlu nəzərlərini göylərə dikmiş, ucu bucağı olmayan səmanın sirlərini öyrənməyə çalışmışdır. Fəzada sayrışan saysız ulduzları seyr etdikcə insanlar uzaq yaxın bu parıltılar haqqında əfsanələr yaratmış, bəzən hər kəs səmada bir ulduzunun olduğuna inanmış, ulduzların uçmasını insanın həyatla vidalaşması kimi başa düşmüşdür. Nəhayət XIX əsrin sonu, XX əsrin əvvəllərində insanın əngin fəzaya uçmaq xəyalı gerçəkləşməyə başlamışdır.***

İlk dövrlər səmaya aerostatlara (Sabir demiş balonlarla) uçan insan oğlu 1916-cı ildə ilk dəfə təyyarələrdən elə insan oğlunun başına bomba yağdırmağa başlamışdır. Sonralar təyyarələr təkmilləşdirilmiş, səsdən sürətli, birbaşa uzaq məsafələrə uçan super avialaynerlər meydana gəlmişdir.

Zaman keçmiş, yer orbitinə daxil olan səma da insana dar gəlmiş, bu orbitdən çıxmaq üçün yollar axtarmağa başlamışdır. Uzun çalışmalardan sonra 1961-ci ilin 12 aprelində yer övladı bu arzusuna da qovuşmuşdur. Həmin gün keçmiş Sovet İttifaqı vətəndaşı Yuri Qararin «Soyuz-1» kosmik gəmisində bəşər tarixində ilk dəfə yer orbitindən, yerin cazibə qüvvəsi əhatəsindən ayrılaraq açıq kosmosa uçmuşdur.



Bu hadisə ildırım surətlə bütün dünyaya yayıldı. Yuri Qaqarinin adı bir anda məşhurlaşdı. 27 mart 1968-ci ildə sınaq uçuşu zamanı həlak olan kosmosun ilk fatehinin əziz xatirəsi indi dünyanın hər yerində dərin hörmətlə anılır.

Keçmiş SSRİ-də kosmosun fəth edilməsi işinin banilərindən biri də həmyerlimiz, Kosmosa Uçuşlar Üzrə Dövlət Komissiyasının sədri general-leytenant Kərim Kərimov idi. O vaxt kosmosa uçan və kosmosdan dönən kosmonavtlar məruzə edərkən özləri görünsə də məlumatı qəbul edən yüksək vəzifəli şəxs ekranda görünmürdü. Şəxsi və dövlət təhlükəsizliyi gərəyincə 30 ildən artıq vəzifəsinin və kimliyinin məxfi saxlandığı həmin şəxsin həmyerlimiz olduğunu sonralar öyrəndik.

Hazırda vətənimiz Azərbaycanda dünyanın 50 ölkəsini birləşdirən kosmos məkanında əsas rol oynayan dövlətə çevrilmişdir.

2010-cu ildə Rabitə və Yüksək Texnologiyalar Nazirliyi nəzdində «Azərkosmos» Açıq Səhmdar Cəmiyyəti yaranıb. Bu təşkilat peyk rabitəsi əsasında yayım və geniş zolaqlı internet xidməti göstərir.

«Azərspase 1» telekommunikasiya peykinin inkişaf etmiş dizaynı və qoşulma imkanlarından Avropa, Asiya və Afrikanın milyonlarla sakini istifadə edir.

56 il əvvəl insanın kosmosa uçuşu dünya elmində böyük inqilabi sıçrayışın başlanğıcı oldu. Bu gün mobil rabitə, informasiya, internet və bütün elektron aləmdə baş verən misilsiz yüksəliş bu sıçrayışın nəticəsidir.

Kosmosa insanın ilk uçuş günü 12 aprel 1962-ci ildən başlayaraq dünyada Ümumdünya Aviasiya və Kosmonavtika Günü kimi qeyd olunur.

**✍ Qüdrət SƏMƏDOV.**
**«Qəbələ».**

# Özünüməşğulluq proqram icra edilir

«Əhalinin özünüməşğulluğunun təmin olunması sahəsində əlavə tədbirlər haqqında» Azərbaycan Respublikası Prezidentinin 07 aprel 2016-cı il tarixli 1941 nömrəli Sərəncamının icrası ilə əlaqədar olaraq işsiz və işaxtaran vətəndaşları özünüməşğulluq proqramına cəlb etmək üçün Qəbələ Rayon Məşğulluq Mərkəzi tərəfindən seçim prosesi həyata keçirilmişdir. Seçim və təlim prosesini başa vurmuş vətəndaşlardan 13-ü kənd təsərrüfatı, 3-ü xidmət sahəsində olmaqla 16 nəfərin biznes planı müsbət qiymətləndirilmişdir.

Biznes planı müsbət qiymətləndirilmiş vətəndaşlardan 8-i ətlik heyvandarlıqla, 4-ü südlük heyvandarlıqla, 1-i arıçılıqla, 1-i kiçik iaşə xidməti ilə, 1-i çap və poliqrafiya, 1-i avtomobil təmiri sahəsində fəaliyyət göstərəcəkdir. Biznes planı bəyənilmiş vətəndaşların özünüməşğulluğunun təmin olunması üçün tələb olunan aktivlərin verilməsinə başlanılmışdır. Artıq 8-i kənd təsərrüfatı, 1-i xidmət sahəsi olmaqla özünüməşğulluq proqramının iştirakçılarından 9 nəfəri aktivlərlə təmin edilmişdir. Bu vətəndaşların 7 nəfərinə ümumilikdə 27 baş iribuynuzlu heyvan, o cümlədən 4 baş ana inək, 4 baş buzov, 3 baş düyə, 4 baş boğaz inək, 12 baş kökəltmə üçün dana, 1 nəfərinə kompüter və çap avadanlıqları, 1 nəfərinə arı ailəsi verilmişdir. Digər iştirakçıların da aktivlərlə təmin olunması istiqamətində işlər həyata keçirilir. Yaxın vaxtlarda proses tam başa çatdırılacaqdır.

**«Qəbələ».**

# 31 Mart Azərbaycanlıların Soyqırımı Günü anıldı

Rayon tarix-diyarşünaslıq muzeyində azərbaycanlıların soyqırımı tarixi faciəsinin anım mərasimi qeyd edilmişdir. Faciə qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad olunmuş, ermənilərin Azərbaycanda, o cümlədən Bakıda, Qubada, Şamaxıda və digər bögələrdə törətdiyi qanlı qətliamlar, xalqımıza verilən işgəncələr, o cümlədən uşaqlara, qadınlara, qocalara fərq qoyulmadan törədilən qırğınlar ürək ağrısı ilə xatırladılmışdır.

Bu tarixi faciənin gələcək nəsillərin qan yaddaşına əbədi həkk olunması üçün muzeyimizə gələn hər bir tamaşaçı ilə mütəmadi olaraq soyqırımına dair söhbətlər aparılır, onlar «31 mart 1918-ci il» adlı sərgi ilə tanış edilirlər.

**✍ İlhamə SEYİDOVA,**
**muzeyin əməkdaşı.**

# Tədbir keçirilmişdir

Qəbələ Rayon Mərkəzi Kitabxanasında 31 mart Azərbaycanlıların soyqırımı günü ilə əlaqədar «31 mart soyqırımı» adlı tədbir keçirmişdir. Tədbirdə ilk öncə soyqırım qurbanlarının əziz xatirəsi bir dəqiqəlik sükutla qeyd olunub. Tədbiri giriş sözü ilə açan MKS-nin direktoru Ramiz Mirzəyev erməni faşizminin dəhşətlərindən danışmışdır. Həmçinin tədbirdə İradə Xəlilova, Fəridə Cabbarova, bu sətirlərin müəllifi çıxış edərək «Böyük Ermənistan» yaratmaq xülyasından ruhlanan erməni qəsbkarlarının azərbaycanlılara qarşı açıq şəkildə genişmiqyaslı qanlı aksiyalar həyata keçirmələri haqqında geniş məlumat vermişlər.

Qeyd olunmuşdur ki, ötən əsrdə erməni vəhşi toplumu dəfələrlə azərbaycanlılara qarşı açıq şəkildə qanlı aksiyalar, soyqırımları kesirmişlər. 1905-1907-ci illərdə birinci rus inqilabının imperiya ərazisində yaratdığı qarışıqlıqdan istifadə edən ermənilər azərbaycanlılara məxsus yüzlərlə yaşayış məntəqəsini xarabaya çevirmiş, on minlərlə azərbaycanlını soyqırıma məruz qoymuşlar.

1917-ci il oktyabr inqilabından sonra imperiyanın hər yerini bürüyən vətəndaş müharibəsi zamanı yaranmış vəziyyətdən ermənilər istifadə edərək vətəndaş müharibəsi yox, millətlər arası qırğın törətdilər. Həmişəki kimi yenə də hədəfləri azərbaycanlılar oldu. 1918-ci ilin martın 30-da axşam Bakıda ermənilərin başladığı qırğın tezliklə digər qəzalara da yayıldı. Bu qırğının miqyası daha böyük idi. Yüzlərə azərbaycan kəndi və şəhəri xarabaya çevrildi. Azərbaycanlı olduğuna görə öldürülənlərin sayı isə 100 minə qədər oldu.

1919--1920-ci illərdə Azərbaycan Xalq Cumhuriyyəti dövründə 31 mart matəm günü kimi qeyd olunsa da sovet hakimiyyəti illərində (1920-1991) bu tarixi faciədən danışmaq qadağan edildi.

Xalqımız müstəqillik əldə etdikdən sonra 31 mart hadisələrindən bəhs edilməyə başlandı. 1998-ci il martın 26-da ümummilli lider Heydər Əliyevin imzaladığı Fərmanla hər il martın 31-i Azərbaycanlıların Soyqırımı Günü kimi qeyd olunur.

Tədbirin sonunda iştirakçılar «31 mart soyqıprımı» adlı sərgiyə baxmışlar.

**✍ Maarif HƏSƏNOV,**
**MKS-in əməkdaşı.**

# Bu qan yerdə qalmayacaq

31 mart Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar Qəbələ şəhər 3 nömrəli tam orta məktəbdə tədbir keçirilmişdir.

Tədbiri məktəbin direktoru Ədilə Əliyeva açmışdır. Soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir. Erməni daşnak quldur dəstələri tərəfindən 1918-ci ilin mart-aprel aylarında Bakıda və digər bölgələrdə azərbaycanlılara qarşı həyata keçirilən soyqırımı barədə danışmaq üçün söz məktəbin tarix müəllimi Məleykə Rəsulovaya verilmişdir. Natiq bildirmişdir ki, 1918-ci ilin martın 30-dan aprelin 2-dək ermənilər tərəfindən azərbaycanlılara qarşı törədilən soyqırımı hadisəsində Bakıda 30 mindən çox azərbaycanlı qətlə yetirilmiş, 400 milyon manatlıq (indiki pulla 4 milyard dollardan çox) əmlak talan edilmişdir. Şamaxı qəzasında 53 müsəlman kəndi, Quba qəzasında 162 kənd, Dağlıq Qarabağda 150 azərbaycanlı kəndi tamamilə dağıdılmış, bu bölgələrdə Lənkəran və Muğan da daxil olmaqla 50 min nəfərdən çox azərbaycnlı qətlə yetirilmişdir.

Tədbirin təşkilatçısı, uşaq birliyinin rəhbəri Aygül Nəbiyeva çıxışında qeyd etmişdir ki, ulu öndər Heydər Əliyev 26 mart 1998-ci ildə azərbaycanlıların soyqırımı haqqında» Fərman imzalamışdır. Fərmanda erməni vəhşiliyinin əsil üzü açılıb göstərilmiş, 31 mart tarixinin hər il Azərbaycanlılarının Soyqırımı Günü kimi qeyd olunması qərara alınmışdır.

Tədbirdə şagirdlərin 31 mart Soyqırımı Gününə həsr etdikləri ədəbi-bədii kompozisiya nümayiş olunmuş, şəhidlərimizə, Vətənə aid şeirlər səslənmişdir.

Tədbir «Bu qan heç vaxt yerdə qalmayacaq» şüarları ilə başa çatmışdır.

**✍ Vəfa ALXASLI,**
**məktəbin müəllimi**

# Dizaxlı kəndindən xəbərlər

Soyuq qış arxada qaldı. Kənd camaatı yenidən tarlalara, bağlara çıxır. Dizaxlı kənd inzibati ərazi nümayəndəliyindən aldığımız məlumata görə bu yaz kəndin əhalisi bağlara, tarlalara daha həvəslə üz tutub. Çünki Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin gündəlik qayğısı və nəzarəti sayəsində kəndli əməyinə verilən qiymət xeyli yüksəlib. 2016-cı ildə kənd sakinlərinin istehsal etdiyi fındıq məhsulunun qiyməti əvvəlki illərə nisbətən bir neçə dəfə artdı. Uzun illər yaddan çıxmış ənənəvi və gəlirli sahə olan baramaçılıq və tütünçülüyün inkişafına yenidən diqqət artırıldı.

Bütün bunlara görədir ki, 2016-cı ilin payızında Dizaxlı kənd camaatı əlavə 3 hektara yaxın sahədə fındıq bağı əkmişdir. İndi həm köhnə, həm də yeni fındıq bağlarına qulluq edilir, ağacların dibi yumşaldılır, bağlar kol-kosdan təmizlənir, quru budaqlar kəsilib tullanır və sair becərmə işləri gedir.

Tütünçülük təsərrüfatının dirçəldilməsi üçün işlər görülür. Kənd sakini Tofiq Səlimovun ailə fermer təsərrüfatı tütün şitili yetişdirmək üçün isti şitilliksalma işini başa çatdırmışdır. Artıq şitillikdə yaxşı cücərmə alınmışdır.

May ayının əvvəllərində tütün şitillərinin sahəyə köçürülməsinə başlanacaqdır.

Məlumdur ki, istər bağçılıq, istərsə də digər bitkiçilik sahələri üçün suvarma suyu ən vacib amildir. Bunu nəzərə alan Dızaxlı camaatı Çuxur Qəbələ kəndinin yanından Dızaxlı kəndinə təxminən 3 kilometrdən artıq olan «Baba Qəmbər» su arxının təmirinə başlamışdır.

Bir sözlə digər kəndlər kimi Dizaxlı kəndində də yazın gəlişi əsil təsərrüfat canlanmasına səbəb olmuşdur.

***«Qəbələ».***